**Mark Tven**

# TOM SOYYERİN

## MACƏRALARI

Tərcüməçi:
Şəfiqə Ağayeva

qanun nəşriyyatı

Mark Twain

# THE ADVENTURES OF
# TOM SAWYER

Tomla dostlarının başına maraqlı, qorxulu və əyləncəli hadisələr gəlir. Macəra axtaran uşaqlar kimsəsiz adada tufana düşürlər, geri qayıdanda isə özlərinin dəfn mərasiminə gəlib çıxırlar. Tomla Hekin qəbiristanlıqda təsadüfən şahidi olduqları bir qətl hadisəsi onların sonrakı taleyinə həlledici təsir göstərir. Uşaqlar işin üstünü açmaqla dar ağacına sürüklənən günahsız insanı xilas edirlər. Bu isə sonradan onların təqib olunmasıyla nəticələnir. Uşaqları izləyən qatil sonda özü qurbana çevrilir. Qatili güdən dostlar qorxunc cinayətlərin qarşısını alırlar.

Böyük Amerika yazıçısı Mark Tvenin (1910) "Tom Soyyerin macəraları" romanı dünya uşaq ədəbiyyatının incilərindən sayılır.

**Mark Twain** **THE ADVENTURES OF TOM SAWYER**
**Mark Tven** **TOM SOYYERİN MACƏRALARI**
Bakı, Qanun Nəşriyyatı, 2024, 256 səh.

Janr: bədii ədəbiyyat, roman
Yaş qrupu: 10+
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 11.11.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Şəfiqə Ağayeva
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-763-1

© Qanun Nəşriyyatı, 2018; 2024
© "Gənclik", 1959

# MÜNDƏRİCAT


**Birinci fəsil.** MƏSƏLƏ VURUŞMADAN BAŞLANIR ........................ 7

**İkinci fəsil.** USTA RƏNGSAZ ................................................................ 16

**Üçüncü fəsil.** TOMUN TANIMADIĞI GÖZƏL QIZ ............................. 22

**Dördüncü fəsil.** LOVĞALIQ GÖR ADAMI NƏ HALA SALIR ........... 29

**Beşinci fəsil.** KÜÇÜK VƏ «DİŞLƏYƏN» BÖCƏK ............................. 40

**Altıncı fəsil.** SEHRBAZLIQ VƏ QADIN FÜSUNKARLIĞI ................ 46

**Yeddinci fəsil.** YENƏ DƏ MƏHƏBBƏT VƏ ÜRƏK ÇIRPINTILARI ........................................................................................ 59

**Səkkizinci fəsil.** DƏNİZ QULDURLARI VƏ SOYĞUNÇULAR HAQQINDA ........................................................................................ 66

**Doqquzuncu fəsil.** QƏBİRİSTANDA QƏTL ........................................ 73

**Onuncu fəsil.** QAÇIŞ ........................................................................... 81

**On birinci fəsil.** XALQ MƏHKƏMƏSİ .................................................. .89

**On ikinci fəsil.** TOM DƏRMAN İÇİR .................................................... 95

**On üçüncü fəsil.** ÜÇ DƏNİZ QULDURU ............................................ 101

**On dördüncü fəsil.** SUDA BOĞULANLARIN AXTARILMASI ......... 111

**On beşinci fəsil.** TOM ÖZÜNÜNKÜLƏRƏ BAŞ ÇƏKİR .................... 118

**On altıncı fəsil.** QULDURLARIN DÜŞƏRGƏSİNDƏ ........................... 124

**On yeddinci fəsil.** DƏNİZ QULDURLARININ DƏFNİ ........................ 135

**On səkkizinci fəsil.** QƏRİBƏ YUXU .................................................... 140

**On doqquzuncu fəsil.** TOM PEŞMAN OLUR ...................................... 150

**İyirminci fəsil.** TOM ÖZÜNÜ FƏDA ELƏYİR .................................... 153

**İyirmi birinci fəsil.** İMTAHANLAR ........ 159
**İyirmi ikinci fəsil.** TOM QIZILCA ÇIXARIR ........ 163
**İyirmi üçüncü fəsil.** TOM MEF POTTERİN CANINI QURTARIR ..... 167
**İyirmi dördüncü fəsil.** BAŞIBƏLALI QƏHRƏMAN ........ 174
**İyirmi beşinci fəsil.** XƏZİNƏ AXTARIŞI ........ 176
**İyirmi altıncı fəsil.** YENƏ DƏ HİNDU CO ........ 184
**İyirmi yeddinci fəsil.** İZLƏMƏ ........ 194
**İyirmi səkkizinci fəsil.** KƏŞF ........ 198
**İyirmi doqquzuncu fəsil.** HEK QULDURLARI GÜDÜR ........ 202
**Otuzuncu fəsil.** HEKİN HEKAYƏTİ ........ 210
**Otuz birinci fəsil.** MAĞARADA AZIRLAR ........ 220
**Otuz ikinci fəsil.** QURTULDULAR! ........ 230
**Otuz üçüncü fəsil.** XƏZİNƏ TAPILIR ........ 234
**Otuz dördüncü fəsil.** DUL QADININ EVİNDƏ MƏCLİS ........ 244
**Otuz beşinci fəsil.** HEK SƏRVƏTDƏN BOYUN QAÇIRIR ........ 248

NƏTİCƏ ........ 254

## Birinci fəsil
## MƏSƏLƏ VURUŞMADAN BAŞLANIR

– Tom!

Cavab gəlmir.

– Tom!

Cavab eşidilmir.

– Çox qəribədir, görəsən bu uşaq harada itib-batıb?.. Tom!

Cavab gəlmir.

Polli xala eynəyini burnunun ucuna endirib üstündən bütün otağı gözdən keçirdi, sonra eynəyi alnına qaldırıb otağa onun altından göz gəzdirdi. O, uşaq kimi xırda bir şey axtaranda nadir hallarda eynəklə baxardı, demək olar, heç baxmazdı, bu eynək onun həm bəzəyi, həm də qürur yeriydi. Eynəyi zərurətdən yox, yaraşıq üçün almışdı, gözünə taxanda heç nə görmürdü. O, bir dəqiqəliyə özünü itirdi, sonra yavaşca – elə yavaş ki, onun səsini yalnız otaqdakı mebel eşidə bilərdi – dedi:

– Bir dayan, əlbət əlimə keçərsən!..

Sözünü qurtarmamış əyilib döşəmə şotkası ilə çarpayının altını qurdalamağa başladı. Şotkanı çarpayının altına hər uzadanda dayanıb nəfəsini dərirdi. Ancaq oradan pişikdən başqa heç nə çıxmadı.

– Belə də uşaq olar! Ömrümdə belə nadinc görməmişəm!

O, taybatay açılı qapıya yanaşıb kandardan öz bostanına – alaq basmış pomidor ləklərinə göz gəzdirdi. Tom orada da görünmürdü. Onda Polli xala uzaqlarda eşidilsin deyə bacardıqca səsini qaldırdı:

– To-o-om, haradasan?

Arxada yüngül bir xışıltı eşidildi, qadın dönüb baxdı, qapıdan sivişib əkilmək istəyən uşağın aşırmasından lap vaxtında yapışdı.

– Gör ha, anbara baxmaq heç ağlıma gəlməyib. De görüm, sən orada neyləyirdin?

– Heç nə.

– Heç nə? Bir əllərinə, ağzına baxsana. Bu nədir belə?

– Bilmirəm, xala.

– Amma mən bilirəm. Bu mürəbbədir, bildinmi, mürəbbə. Sənə yüz dəfə demişəm ki, mürəbbəyə əl vurma, yoxsa səni döyüb öldürərəm. O çubuğu ver mənə.

Çubuq yuxarı qalxdı, deyəsən, bu müsibətdən yaxa qurtarmaq olmayacaqdı.

– Xala, bir ora baxın, arxanızdakı nədir elə?

Xala özünü təhlükədən qorumaq üçün tumanının balağını yığışdırıb geri döndü. Uşaq isə bu anda uca hasarı aşıb gözdən itdi.

Polli xala siftə-siftə özünü itirdi, sonra şaqqanaq çəkib şirin-şirin güldü:

– Di bacar bununla, görüm necə bacarırsan! Mən də ki, heç ağıllanmıram da… De görüm, bu uşaq başıma azmı oyun açıb! Mənim yerimə kim olsaydı, indiyə ağıllanmışdı. Qocanın axmağı ələ düşməz! Yaxşı deyiblər ki, qoca köpəyə təzə oyun öyrətmək olmaz. Aman, ya rəbb, axı o, hər gün özündən bir kələk uydurur, mən bunların hamısını necə qanım! Özü də zəif damarımı yamanca tutub. Bilir ki, məni güldürsə, ya fikrimi yayındırsa, qollarım boşalacaq, daha ona bircə kötək də ilişdirə bilməyəcəyəm. Təqsirimi niyə danım! Mən öz borcumu yerinə yetirə bilmirəm. Axı müqəddəs kitablarda yazılıb ki, uşağa rəhmi gələn adam onu bədbəxt

eləyir. Bundan heç bir şey çıxmayacaq, nahaq yerə günaha batıram. Onun qəlbinə cin-şeytan girib, bilirəm, ancaq neyləyim, tifil rəhmətlik bacımın yadigarıdır, ona əl qaldırmağa ürəyim gəlmir! Elədiyi işlərə göz yumuram – vicdanım incidir, cəzalandırıram – ürəyim davam gətirmir. Daha neyləmək olar, müqəddəs kitabda da yazılıb ki, insanın dərdi çox, ömrü isə qısa olur. Çox doğru yazılıb. Bu gün tənbəlliyindən məktəbə getməyib, gərək sabah onu yaxşıca cəzalandıram, elə bir iş tapşıram ki, evdən çıxa bilməsin. Uşaqlar hamısı bayram elədiyi bir vaxtda onu işlətmək insafdan deyil, axı hələ onun ağır iş görən yaşı da deyil. Ancaq neyləyim, gərək öz borcumu yerinə yetirəm, yoxsa uşağı bədbəxt elərəm.

Tom məktəbə getmədi, vaxtını çox gözəl keçirdi. Axşam yeməyinə qədər sabaha odun mişarlayıb gözlük qamqalaq qayırmaqda zənci uşaq Cimə kömək eləmək üçün özünü evə güclə çatdırdı. Cim işlərin yarıdan çoxunu görüb qurtarana qədər Tom macal tapıb sərgüzəştlərini ona danışa bildi. Tomun özündən kiçik ögey qardaşı Sid tapşırılan işin hamısını görüb qurtarmışdı (o, qamqalağı, odun talaşalarını yığıb evə daşıyırdı). Dəcəlliklə işi olmayan Sid dinc, sözəbaxan bir uşaq idi.

Tom axşam yeməyini yediyi və fürsət düşdükcə qənddandan qənd çırpışdırdığı müddətdə Polli xala onu cürbəcür dolayı suallara tutmuşdu ki, bəlkə oğlan çaşıb ağzından bir söz qaçıra. Bir para sadəlövh adamlar kimi Polli xala da özünü söhbətdə incə, usta bir diplomat saydığından elə zənn edirdi ki, özünün sadə gedişləri ilə böyük hiyləgərlik və diribaşlıq nümunəsi göstərir. O, bacısı oğlundan soruşdu:

– Tom, bu gün məktəbdə sənə çox isti deyildi ki?

– Bəli, xala.

– Bəlkə çox istiydi?

– Bəli, xala.

– Bəs nə yaxşı çimmək həvəsinə düşməmisən, Tom?

Tomun ürəyi qopdu, nə isə pis bir iş baş verəcəyini duydu. O, şübhəli-şübhəli Polli xalanın üzünə baxdısa da, elə bir şey sezmədi. Ona görə də dedi:

– Yox, xala, nəsə ürəyim istəmədi.

Polli xala əliylə Tomun köynəyini yoxlayıb dedi:

– Hə, Tom, heç tərləməmisən.

Tomu duyuq salmadan bir bəhanəylə onun köynəyinin quru olub-olmadığını yoxlaya bilməsi, niyyətini heç kəsin ağlına gəlməyəcək qədər gizli saxlaması ona ləzzət verirdi.

Ancaq Tom küləyin hayandan əsdiyini o saatca başa düşüb, tez xalasını qabaqladı:

– Yox, biz orada quyu suyuyla başımızı islatmışdıq. Başım hələ də yaşdır, bir baxın!

Polli xala belə mühüm bir sübutu nəzərdən qaçırdığına görə çox bikeflədi. Ancaq bir göz qırpımı sonra yenə də ruhlandı:

– Tom, başını islatmaq üçün köynəyinin yaxalığını sökmək lazım gəlmədi, elə deyilmi? Gödəkcənin yaxasını aç görüm!

Tomun rəngi üstünə gəldi. O, gödəkcəsinin yaxasını açdı. Köynəyinin yaxalığı möhkəm tikilmişdi.

– Ay sənə nə deyim! Dur rədd ol buradan! Düzü, mən elə bilirdim sən dərsdən qaçıb çimməyə getmisən. Yaxşı, bu dəfə səni bağışlayıram. Görünür, mən yanılıram, sən o qədər də pis uşaq deyilsən.

Polli xala fəndgirliyinin baş tutmadığına bikeflədisə də, Tomun heç olmasa ayda-ildə bir dəfə özünü yaxşı apardığına sevindi.

Bu yerdə Sid məsələyə qarışdı:

– Mənə elə gəlir siz onun yaxalığını ağ sapla tikmişdiniz, ancaq indi tikişin sapı qaradır.

– Əlbəttə, mən ağ sapla tikmişdim! Tom!

Ancaq Tom söhbətin axırını gözləmədi. Özünü qapıdan bayıra atıb qışqırdı:

– Yaxşı, Siddi, gör sənin başına nə oyun gətirəcəyəm!

Tom xəlvətə çəkilib gödəkcəsinin yaxasını qaldırdı, astar üzə saplı iki yoğun iynə sancılmışdı, iynələrdən birinin sapı ağ, o birininki isə qara idi.

– Sid olmasaydı, Polli xala heç nə başa düşməyəcəkdi. Lənətə gəlmiş! Xalam da gah ağ sapla tikir, gah qara sapla. Həmişə bir cür sapla tiksəydi, adam da çaşbaş qalmazdı, hər dəfə sapın rəngini necə yadda saxlayasan? Amma Sidi nə kötəkləyəcəyəm – ömrü boyu yadından çıxmayacaq!

Tom şəhərin ən nümunəvi uşaqlarından deyildi. Bununla belə o, ən nümunəvi uşağı çox yaxşı tanıyır, üstəlik, ondan zəhləsi gedirdi.

İki dəqiqə keçməmiş o, özünün bütün bədbəxtliklərini unutdu. Ona görə yox ki, onun bədbəxtliyi yaşlı adamların bədbəxtliyi kimi ağır və kədəri deyildi, yox, ona görə ki, yeni və maraqlı bir fikir dərdi-qəmi bir anda onun qəlbindən sıxışdırıb çıxarmışdı. Yaşlılar da belə olurlar. Onlar yeni bir işə başlayanda öz dərdlərini unudurlar. Bu yeni iş ondan ibarət idi ki, Tom bayaq bir zəncidən xüsusi tərzdə fit çalmağı öyrənmişdi, indi arxayınlıqla bunu məşq eləmək istəyirdi.

Fit deyəndə bu, bir quş nəğməsiydi, quşu yamsılamaq üçün hərdən civildəmək, hərdən də ucadan cəh-cəh vurmaq gərək idi. Fitdə belə bir cəh-cəh çıxsın deyə dili tez-tez üst damağa toxundurmaq lazım gəlirdi – əgər oxucu nə vaxtsa uşaq olubsa, bunun necə edildiyi yəqin yadında qalar. Tom diqqətlə, həvəslə işə girişib tezliklə bir balaca vərdiş qazanandan sonra küçədə daha da yeyin yeriməyə başladı. O, ağzında mahnı çalırdı, qəlbi isə fərəhlə doluydu. Özünü yeni planet tapmış astronom kimi hiss edirdi, di gəl, onun sevinci astronomun sevincindən də dərin, ondan da güclü, ondan da coşqun idi.

Yay axşamı uzun olur. Hələ hava qaralmamışdı. Tom birdən fit çalmağı kəsdi. Qarşısında özündən azca böyük tanımadığı bir

oğlan dayanmışdı. Sent-Pitersburq kimi balaca, ucqar şəhərdə hansı yaşda, hansı cinsdən olur olsun, yeni adama yüzdə-mində bir rast gəlinərdi. Oğlan üstəlik də yaxşı geyinmişdi, işə bax, özü də adi günlərin birində! Lap qəribə idi! Başında təptəzə yaraşıqlı şlyapa, əynində yaxası başdan-ayağa düyməlonmiş bəzəkli mahud gödəkcə, təzə şalvar vardı. Ayağına çəkmə geymişdi. Çəkmə, özü də cümə günü! Hətta boynuna al-əlvan lentdən qalstuk da bağlamışdı. Ümumiyyətlə, onda Tomun zəhləsi gedən bir şəhərli görkəmi vardı. Tom bu parlaq möcüzəyə baxdıqca şıq geyinmiş oğlanın qarşısında özünü sındırmır, burnunu bir az da dik tuturdu. Bununla belə yoxsul əyin-başı ona daha acınacaqlı görünürdü. Uşaqların heç biri dinmirdi. Biri yana bir addım atanda, o biri də həmin dairədə səmtə doğru yerini bir addım dəyişirdi. Onlar bir-birinin gözünün içinə baxa-baxa uzun müddət üz-üzə dayandılar. Nəhayət, Tom dedi:

– Deyəsən, sən döyülmək istəyirsən?

– Hünərin var yaxın dur! Sən bacaran iş deyil bu.

– Dedim döyərəm, bil ki, döyərəm.

– Döyə bilməzsən.

– Bilərəm.

– Yox, bilməzsən!

– Bilərəm.

Ağır bir sükut çökdü. Sonra Tom yenidən dilləndi:

– Adın nədir?

– Sənə qalmayıb.

– İstəsəm, qalar.

– Hə, nə oldu, niyə vuruşmursan?

– Bir də ağzını aç, gör payını alırsan, ya yox!

– Bah, yaman qorxdum, buyur görüm neyləyəcəksən!

– Özünü çox dartma, istəsəm, səni bir əlimlə şil-küt eləyərəm!

– Bəs niyə eləmirsən? Elə dilin var…